# Haqqımız tapdanır, kor gözlər görmür



*Gülxani* Pənah

***2020-ci il 13-14 iyulda Tovuz bölgəsində həlak olmuş Şəhidlərimizin xatirəsinə***

### Dünən də şəhid vardı...

İllərdir qan axır günahsız yerə,
Günahkar silahlı, mən əliyalın.
Gözümün içində selləri, suyu
Duzlu dənizlərin, hər bir dəryanın.

Oğullar anaya, Vətənə bağlı,
Şəhid anasıyıq ürəyi dağlı,
Dünya bizim dünya; qaralı-ağlı...
Dünən də şəhid var, bu gün də şəhid.

Susuruq daş kimi, susub dururuq,
Günahkar önündə biz qan qusuruq.
Niyə dayanmışıq, niyə susuruq?
Dünən də şəhid var, bu gün də şəhid.

Susduqca ellərdə məzarlar artır,
Hər şəhid məzarı köksümü dartır,
Hər şəhid kəlməsi ağzımı yırtır,
Dünən də şəhid var, bu gün də şəhid.

Torpağın sinəsi od içindədir,
Sinəmdə ürəyim od içindədir,
Sinəmdə bir yanğı, od, içimdədir,
Dünən də şəhid var, bu gün də şəhid...

Zamanın təpiyi altındayıq biz,
Doğunda, Güneydə, Batındayıq biz,
Şəhidik, torpağın qatındayıq biz.
Dünən də şəhid var, bu gün də şəhid.

Tökülür qanımız, axır qanımız,
Torpağa qurbandır bizim canımız.
Ölümdür, itimdir hər bir anımız.
Dünən də şəhid var, bu gün də şəhid...

Haqqımız tapdanır, kor gözlər görmür,
Hər şəhid bir çiçək torpağa gömür,
Şəhidlər heç zaman, heç zaman ölmür.
Dünən də şəhid var, bu gün də şəhid...

Hər oğul yurdumun sərhəd dirəyi,
Hər oğul Vətənin hər gün gərəyi,
Hər oğul Vətənin vuran ürəyi...
Dünən də şəhid var, bu gün də şəhid.

Bu gün də şəhid var, dünən də şəhid.
Şəhidlər torpaqdan cücərir qalxır,
Vətəndir cismimiz, canımız bizim,
Düşməni bu həsəd yandırıb yaxır.

* * *

Çıxıbdır əlindən çərxi fələyin,
Dünyanın çərxini İblis fırladır.
Saatlar, dəngələr, haqlar, inamlar
Tərsinə fırlanır, bizi aldadır.

Arxalı köpəklər qurdbasar olar,
Namərdlər, yağılar yurdbasar olar.
Hər şəhid müsəlləh bir əsgər kimi
Vətənçün min dirək, bir hasar olar.

Şəhid doğulur doğulanlarım,
Qeyrətin içində boğulanlarım,
Poladım, Dönməzim, Anarım,
Yaşarım, Elçinim, Rəşadım...
İlqarlarım - hər bir şəhidim
Mənim doğma balam, öz oğullarım!

Canımdan can gedib, görür Allahım,
Hər oğul bir oğul hər Ana üçün,
Hər şəhid verdikcə mən də ölürəm,
Can qurban yurd, Vətən, el qanan üçün,

* * *

Min ildir dağılır, talanır yurdun,
Min ildir döyüşür, vuruşur ordun,
Canınla, qanınla dövlətlər qurdun,
Tarixin pasportu, mərdim Şəhidlər!

Sən torpaq, sən oba, Sən Vətən, bağsan...
Hər ana köksünə çəkilən dağsan,
Ölsən də meydanda əbədi sağsan,
Hər zaman, hər zaman mərdim Şəhidlər!

Zaman girdabında çeynəyər səni,
Qeyrətdən ürəyin göynəyər sənin,
Bu İblis, bu Şeytan neyləyər səni?
Ey Tanrı yanında olan Şəhidlər!

Nə iyul, nə aprel, nə keçmiş, bu gün?..
Min ildir qanınla sulanır torpaq,
Min ildir doğulur, ölürsən hər gün,
Qanına boyanır hər çiçək, yarpaq...

Torpağın bətnində sənin bətnin var,
Cənnət qoxusunda sənin ətrin var,
Yediyim nemətsən, içdiyim susan,
Xalqımın qəlbində daim yerin var.

Tökülən qanların qalmaz ki yerdə,
Sən məlhəm, sən təbib hər zaman dərə,
Tökülən qanından doğulub bir də,
Yenə qayıdarsan bizə, Şəhidlər!

Sən Vətən, sən oğul, sən bir dövlətsən,
Sən qədir-qiymətsən, sən bir hörmətsən,
Sən əziz bir oğul, böyük nemətsən,
Bu ana yurduma hər vaxt, Şəhidlər!

Vuran ürəyimin sirdaşı sənsən.
Bir tək balamın qardaşı sənsən.
Bu yurdun qayası, dağ-daşı... sənsən,
Vüqarlı, qüdrətli uca Şəhidlər!

Bir damla nahaq qan axmaz əlinnən,
Gəlmisən Koroğlu, Babək belinnən.
Fəxr etdin yurdunnan, doğma elinnən,
Torpağın, Vətənin oğlu Şəhidlər!

Nə qorxu, nə hürkü, nə dərd bilərsən,
Sən mənən ölməzsən, cismən ölərsən,
Sən doğan Günəşsən, günlə gülərsən...
Ürəyi millətlə vuran Şəhidlər!

Ayıra bilmədim sizləri bir-bir,
Hamınız bir varlıq - bütöv millətsiz,
"Şəhidlər" dedikcə bütövləşdiniz...
Siz Allah göndərən böyük nemətsiz!

Hər damla qanından göyərir torpaq,
Hər damla qanından açılır yarpaq,
Qanından rəng alıb o UCA BAYRAQ,
Dövlətə, bayrağa qurban, Şəhidlər!

Qan ilə yazılır yeni tarixim,
Tökülən bu qanlar mənim qanımdır.
Haqqını istəyən, Haqqı özləyən
Yurdumuz, elimiz Qarabağımdır!

İllərdir inləyir düşmən əlində,
Boğaza yığılmış mərd oğullarım,
İllərdir pozulur bizim haqqımız!
Yatırdıq qoynunda biz nağılların...

ATƏŞKƏS deyilən niqablı İblis,
Arxalı köpəyə xidmət edirdi.
Böyükdən kiçiyə hər vətən oğlu,
İblisə, Şeytana nifrət edirdi.

O nifrət, haqsızlıq kükrədi daşdı,
Silaha sarıldın Azərbaycanım!
Azadlıq yolunda can veririk biz,
Azadlıq yolunda qoy axsın qanım!

* * *

Hər şəhid, hər qazi, hər igid oğul...
Bu Vətən uğrunda silah əlində
Vətəndir, vətəndir, vətəndir Allah,
Şəhidin, qazinin... mənim dilimdə!

Daşlaşsın, bütləşsin Vətən, qoynunda!
Hər şəhid məzarı daş, qayan olsun.
Düşmənə göz dağı, burnunu ovan
Hər igid oğul göz oyan olsun.

O gözü oysun ki, bir də görməsin,
Kəsir qılınc kimi bizi bədnəfsi,
O gözü oysun ki, qəmə bürüyüb,
Doğma Qarabağda doğma hər kəsi.

Qisas qiyamətə qala bilməzdi...
O yurdlar geriyə alınsın gərək.
Qarabağ uğrunda canlar gedibdir...
Şəhid ruhlarına rahatlıq verək.

Hər damla qanına baş əyirik biz!
Bu torpaq qeyrətin, bu qeyrət barın!
Qarabağ deyilən can mülkümüzü,
Qoymayın düşməndə, oğullar, alın!

14 ŁØ ° 2020-œŁ ŁØ